DÖVLƏT VERGİ XİDMƏTİ

# Ödəniş tapşırığının ödənişin təyinatı hissəsində əks etdirilməli məlumatlar

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

❖ Vergi ödəyicisi olan şəxslər arasında ödəniş əməliyyatı aparılarkən əməliyyatı həyata keçirən banka və ya bank əməliyyatlarını həyata keçirən digər şəxslərə təqdim edilən ödəniş tapşırığının ödənişin təyinatı hissəsində konkret rekvizitlər üzrə aşağıdakı məlumatlar göstərilməlidir:

- vergi ödəyicisi tərəfindən əldə edilmiş elektron qaimə-fakturalar üzrə alınmış mallar (işlər, xidmətlər) üzrə - elektron qaimə-fakturanın seriya və nömrəsi;
- təqvim ayı ərzində eyni vergi ödəyicisindən müntəzəm və daimi əsaslarda alınan və elektron qaimə-fakturalar ilə rəsmiləşdirilən mallara (işlərə, xidmətlərə) görə ödəniş aparılarkən belə əməliyyatlar üzrə - tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi;
- xarici ticarət fəaliyyəti üzrə - yük gömrük bəyannaməsinin seriya və nömrəsi, işlərin və xidmətlərin alışı ilə bağlı hesabfaktura (invoys) sənədinin tarixi və nömrəsi;

195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

- borc ödəmələri üzrə - təyinatında borc ödənişi olduğu göstərilməklə tərəflər arasında bağlanmış borc müqaviləsinin və ya borcun ödənilməsinə dair tələbnamənin tarixi və nömrəsi;
- avans ödəmələri üzrə - təyinatında avans ödənişi olduğu göstərilməklə tələbnamənin, yaxud tərəflər arasında bağlanmış müqavilənin və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi.

**Qeyd edilən məlumatları**

- ödəmə tapşırığında göstərməyən və ya
- təhrif edilməklə göstərən vergi ödəyicisinə hər belə ödəmə tapşırığına görə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

## Nə dəyişdi?

**01.01.2022-ci il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən** alınmış, habelə idxal edilmiş mal, iş və xidmətlərə görə vergi ödəyiciləri tərəfindən aparılan bank köçürmələrinin ödəniş tapşırıqlarının ödənişin təyinatı hissəsində konkret rekvizitlər üzrə məlumatların əks olunması ilə bağlı tələb müəyyən edilməmişdi.

**01.01.2022-ci il tarixdən etibarən** vergi ödəyiciləri arasında bank hesabları üzrə aparılan ödənişlərin təkmilləşdirilməsi, bu sahədə vergi nəzarətinin artırılması və aparılan əməliyyatların şəffaflığının təmin edilməsi məqsədi ilə ödəmə tapşırıqlarında ödənişin təyinatı hissəsində konkret rekvizitlər üzrə məlumatlar əks olunacaqdır ki, bu da vergi ödəyiciləri arasında aparılan hesablaşmalar zamanı ödəniş intizamının artırılmasına və keçirilən vergi nəzarəti tədbirləri zamanı mübahisəli halların aradan qaldırılmasına şərait yaradacaqdır.

**BAKI — 2022**